Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Yanvar 2022

www.ereforms.gov.az
info@ereforms.gov.az

**Qeyri-neft ixracımız 40 faizdən çox artıb. Bu, imkan verir ki, biz valyutanı təkcə neft-qaz hesabına yox, eyni zamanda, digər məhsullar hesabına ölkəmizə gətirək.**

Bizim ixracımızla bağlı planlarımız həyata keçirilir. Qeyri-neft ixracımız 40 faizdən çox artıb. Bu, imkan verir ki, biz valyutanı təkcə neft-qaz hesabına yox, eyni zamanda, digər məhsullar hesabına ölkəmizə gətirək. Nəzərə almalıyıq ki, ölkədə əhali artır, deməli, tələbat artır, daxili istehlak artır. Belə olan halda qeyri-neft ixracını artırmaq doğrudan da böyük nailiyyət sayıla bilər. Bütün bu rəqəmlər, yalnız keçən ilin rəqəmləri deyil. Bu rəqəmlərin təməlində uzunmüddətli iqtisadi strategiyamız dayanır. Keçən il biz bu strategiyanın çox gözəl nəticələrini görmüşük.



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin**
**2022-ci ilin yanvar ayının 12-də yerli televiziya kanallarına verdiyi müsahibəsindən**

# MÜNDƏRİCAT

2022 İXRAC İCMALI yanvar


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ........ səh. 4

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ........ səh. 13

"Azərkosmos"a aid xidmət ixracı haqqında məlumat ........ səh. 16

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ........ səh. 18

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat ........ səh. 20

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ........ səh. 23

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2021-ci ilin yanvar-dekabr ayları ərzində **22,2 milyard ABŞ dolları** dəyərində mal ixrac olunmuşdur

## 2021-ci ilin yanvar-dekabr aylarında qeyri-neft sektoru üzrə ixrac **2,7 milyard ABŞ dolları** təşkil etmişdir

2021-ci il ərzində Azərbaycanın ixracı **22,2 milyard ABŞ dolları** olub. Qeyri-neft sektoru üzrə **2,7 milyard ABŞ dolları** dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci il ilə müqayisədə **870 mln. ABŞ dolları** və ya **47,2% artıb**. 2021-ci il ərzində meyvə-tərəvəz məhsulları ötən ilin eyni dövrü ilə müqayisədə 22,9 mln ABŞ dolları artaraq 630,4 milyon ABŞ dolları təşkil edib. Müvafiq dövr ərzində pambıq ipliyi ixracı 3,1 dəfə, kimya sənayesi məhsullarının ixracı 2,9 dəfə, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 2 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracı 66,2%, pambıq lifi ixracı 58,3%, şəkər ixracı isə 19,3% artıb.

Normallaşma prosesinin davam etdiyi dövrdə dekabr ayı üzrə ixrac **2,4 mlrd ABŞ dolları** təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 73,9% təşkil etməklə 353,6 mln ABŞ dolları olub. 2021-ci ilin dekabr ayı

ərzində yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq ayı ilə müqayisədə 38,7% artaraq 101,5 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 93,7% artaraq 252,1 milyon ABŞ dolları təşkil edib.

2021-ci ilin yanvar-dekabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (208 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda qızıl (202,5 milyon ABŞ dolları) ikinci, pomidor (tomat) (160,2 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2021-ci ilin yanvar-dekabr ayları ərzində Rusiya Federasiyasına 877,8 milyon ABŞ dolları, Türkiyəyə 675,9 milyon ABŞ dolları, İsveçrə Konfedrasiyasına 224,1 milyon ABŞ dolları, Gürcüstana 157,5 milyon ABŞ dolları və Amerika Birləşmiş Ştatlarına 74,9 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2021-ci ilin dekabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (114 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə ikinci (89,8 milyon ABŞ dolları) və İsveçrə üçüncü (19,5 milyon ABŞ dolları) olub.

2021-ci ilin dekabr ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında xurma (34,4 milyon ABŞ dolları) birinci, polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr (26,9 milyon ABŞ dolları) ikinci və karbamid (25,1 milyon ABŞ dolları) üçüncü olub.



# 2021-Cİ İLİN YANVAR-DEKABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2021-Cİ İLİN DEKABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2021-Cİ İLİN DEKABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2021-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI yanvar



# 2021-Cİ İLİN DEKABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2021-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2021-Cİ İLİN DEKABR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2021 | 2020 |
|---|---|---|
| Xurma | 34,4 | 26,7 |
| Polimerləşmədə ilkin formalı maddələr | 26,9 | 4,1 |
| Karbamid | 25,1 | 1,6 |
| Pambıq mahlıcı | 20,3 | 21,3 |
| Tomat (pomidor) | 19,6 | 12,8 |
| Elektrik enerjisi | 18,2 | 3 |
| Qızıl | 17,8 | 21,9 |
| İlkin formalı polipropilen | 15,7 | 8,2 |
| Metanol (metil spirti) | 13,9 | 5,1 |

# 2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2021-ci ilin yanvar-dekabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Local Garden" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Baku Steel Company" MMC, "P-Aqro" MMC, "Sun Food" MMC, Hidayətov Təyyar Hidayət oğlu, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Çinar Aqro" MMC "RAM Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, "Azərbaycan Dəmir Yolları" QSC, "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" PHŞ.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2021-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2021-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** "Azergold" QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2021-ci ilin yanvar-dekabr aylarında “Azərkosmos” ASC 45,3 milyon ABŞ dollari dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2021-ci ilin yanvar-dekabr aylarında “Azərkosmos” ASC tərəfindən dünyanın **41 ölkəsinə 45,3 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. “Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **89 faizini** təşkil edib.

2021-ci ilin dekabr ayında isə “Azərkosmos” ASC dünyanın **28 ölkəsinə 3 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2021-ci ilin yanvar-dekabr ayları ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində isə 11,4 milyon ABŞ dolları ilə Fransa, 10,4 milyon milyon ABŞ dolları ilə ABŞ, 9 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 6,9 milyon ABŞ dolları ilə Malayziya və 1,9 milyon ABŞ dolları ilə BƏƏ qərarlaşıb.

# 2021-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA "AZƏRKOSMOS" ASC 45,3 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2022
İXRAC İCMALI
yanvar



## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 11,4 mln $ | Fransa |
| 10,4 mln $ | ABŞ |
| 9 mln $ | Birləşmiş Krallıq |
| 6,9 mln $ | Malayziya |
| 1,9 mln $ | BƏƏ |

45,1 mln $ — 2020

+0,4%

yanvar-dekabr

45,3 mln $ — 2021

# 4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2021-ci ilin yanvar-dekabr ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 1,3 milyard manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2021-ci ilin dekabr ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi 171,7 milyon manat təşkil edib. 2021-ci ilin yanvar-dekabr aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **1,3 milyard manatlıq** əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR (milyon manatla)

2022 İXRAC İCMALI yanvar

| | 2019 | 2020 | 2021* |
|---|---|---|---|
| Yanvar | 88,3 | 85,2 | 72,2 |
| Fevral | 85,3 | 72,9 | 112,2 |
| Mart | 98 | 53,9 | 93,2 |
| Aprel | 103,2 | 19,7 | 64 |
| May | 100,9 | 24,3 | 81,3 |
| İyun | 115,1 | 23,7 | 90 |
| İyul | 134,6 | 23 | 95,1 |
| Avqust | 137,4 | 25,6 | 104,2 |
| Sentyabr | 106,2 | 25,9 | 124,3 |
| Oktyabr | 104,7 | 24,9 | 124,4 |
| Noyabr | 90,3 | 23,2 | 151,1 |
| Dekabr | 92,7 | 27,9 | 171,7 |
| | **1,3 mlrd** | **430,2 mln** | **1,3 mlrd** |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT



## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 2 milyard 720 milyon ABŞ dolları təşkil etmişdir

2021-ci ilin dekabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **60,8 milyon ABŞ dolları** təşkil edib.

2021-ci ilin yanvar-dekabr aylarında Azexport.az portalına **496,1 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2021-ci ilin dekabr ayında Azexport.az portalına ən çox ixrac sifarişi toyuq əti, buğda kəpəyi, alma, şərab, noxud, xurma, pomidor, kartof, qənnadı məhsulu, pambıq yağı və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin 31 dekabr tarixinə kimi (60 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **2 milyard 720 milyon ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ

(milyon ABŞ dolları ilə)











# 2021-Cİ İLİN DEKABR AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

AZEXPORT.AZ
Made in Azerbaijan

- Toyuq əti
- Buğda kəpəyi
- Alma
- Şərab
- Noxud
- Xurma
- Pomidor
- Kartof

6

# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin yanvar ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 9 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2022-ci ilin yanvar ayı ərzində **23** hüquqi və fiziki şəxslər tərəfindən **103 dəfə müraciət** daxil olunub. Ümumilikdə 293 ədəd sertifikat (47 ədəd mənşə, 9 ədəd baytarlıq, 235 ədəd fitosanitar, 2 ədəd CİTES) verilib.

Cari ilin yanvar ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **9 milyon ABŞ dolları** dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qurğuşun, pambıq mahlıcı, pambıq çiyidi, yemlik arpa, nar, alma, qarışıq şirələr, araq, likor, çaxır, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü, krast olunmuş iribuynuzlu heyvan dərisi, dondurulmuş toyuq ayaqları, polad boru, lak, torf, hamam mebelləri və aksesuarları, buğda, çiyid, qarışıq meyvə, fıstıq, çiyid, günəbaxan tumu, mərci, düyü, lobya, yapışqanlı fanera, xurma, stul, şam ağacı, taxta paletin ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında pambıq mahlıcı-64,2%, polad boru-20,9%, qurğuşun-5,8%,

yemlik arpa-2,2%, dondurulmuş toyuq ayaqları-0,9% ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 15 ölkəyə (Türkiyə-68,3%, Rusiya-15,5%, Sinqapur-5,8%, İraq-2,2%, Belarus-1,1% digər ölkələrə (Latviya, Qırğızıstan, İran, Qazaxıstan, Gürcüstan, Malayziya, İtaliya, ABŞ, Polşa, Macarıstan ))- 7,1% ixrac edilmişdir. İxrac olunan məhsulların avtomobil nəqliyyatı ilə-76,8%, dəmiryolu nəqliyyatı ilə-22,2%, qarışıq nəqliyyat ilə-0,7%, hava nəqliyyatı ilə ixracı isə-0,3% təşkil edir.

İxrac statistikasına nəzər yetirdikdə 2021-ci ilin yanvar ayı ilə müqayisədə ixracda **2,3%** artım müşahidə olunmuşdur.



# 2022-Cİ İLİN YANVAR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN YANVAR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ

| Ölkə | Pay |
|---|---|
| Türkiyə | 68,3% |
| Rusiya | 15,5% |
| Sinqapur | 5,8% |
| İraq | 2,2% |
| Belarus | 1,1% |
| Digər ölkələr | 7,1 % |



# 2022-Cİ İLİN YANVAR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ

2022 İXRAC İCMALI yanvar



# 2022-Cİ İLİN YANVAR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ İXRAC EDİLƏN MƏHSULLARIN NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ





**Avtomobil nəqliyyatı**
**76,8%**

Hava nəqliyyatı
**22,2%**

Qarışıq nəqliyyat
**0,7%**

Dəmiryolu nəqliyyatı
**0,3%**



Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.



Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat